**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN VƏ ŞƏRQİ ANADOLUNUN SON ENEOLİT MƏDƏNİYYƏTİ

İxtisas: 5505.02 – Arxeologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Gökçen Ziya Zakir qızı Acar**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2021**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun “Qədim dövr arxeologiyası” şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
**Vəli Baxşəli oğlu Baxşəliyev**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**Abbas Qadir oğlu Seyidov**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Səfər Hüseyn oğlu Aşurov**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Məlahət Novruz qızı Fərəcova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
______________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru, dosent

_____________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru
______________ **Tufan İshaq oğlu Axundov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Naxçıvanın Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən qədim yolların kəsişmə nöqtəsində yerləşməsi, Zəngəzur dağlarının obsidian və mis yataqları ilə zəngin olması, Naxçıvanda isə zəngin mis, arsen və polimetal yataqlarının varlığı Yaxın Şərq ölkələri ilə iqtisadi mədəni əlaqələrin inkişafına əlverişli şərait yaratmışdır. Azərbaycanda, o cümlədən Naxçıvanda uzun illərdən bəri arxeoloji araşdırmalar aparılsa da, Azərbaycanda yaşayan qədim tayfaların Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin öyrənilməsini bitmiş hesab etmək olmaz. Naxçıvan arxeologiyasının öyrənilməsində 2002-ci ildə yaradılan AMEA Naxçıvan Bölməsinin mühüm əhəmiyyəti olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədəki çıxışında demişdir: "*Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq, mən cəsarətlə deyə bilərəm ki, hələ ki, Azərbaycanın, xalqın, ümumiyyətlə, bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir*".[1]

Həqiqətən də, Naxçıvan Bölməsi yaradıldıqdan sonra Naxçıvanın Neolit, Eneolit və Tunc dövrü mədəniyyətlərinin öyrənilməsi sahəsində xeyli iş görülmüş, bu mədəniyyətlərin xronologiyası, yayılma arealı ilə bağlı xeyli fikirlər irəli sürülmüşdür. Naxçıvan MR Ali Məclisi Sədrinin 20 aprel 2012-ci il tarixli "Naxçıvan: ilkin şəhər və Duzdağ" adlı sərəncamında deyilir: "*Naxçıvan Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzinə çevrilmiş və bu ərazidə*

[1] Əliyev H.Ə. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları: [Elektron resurs] / – Bakı, 2002. – 108 s.

*ikinci sivilizasiyanın vacib elementi olan ilkin şəhər mədəniyyəti formalaşmışdır*”.[2]

Əgər XX əsrin sonunadək Naxçıvanda yalnız bir neçə Eneolit abidəsi mövcud idisə, indi bunların sayı otuza yaxındır. Bu abidələrin aşkar edilməsində Naxçıvan MR Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 6 dekabr 2005-ci il tarixli Sərəncamının xüsusilə böyük əhəmiyyəti olmuşdur.

Bizim tədqiqat obyektimiz olan Arpaçay, Naxçıvançay və Sirabçay hövzəsində yerləşən abidələrin bir qismi yerüstü araşdırmalarla, bir qismi isə geniş qazıntılarla öyrənilmiş, arxeoloji materialların böyük bir qismi çap olunmuşdur. Nəşr olunan məqalə və kitablarda Naxçıvanın Son Eneolit mədəniyyətinin Yaxın Şərqlə, xüsusilə Şərqi Anadolu ilə əlaqələrindən bəhs olunsa da, bu mövzu birbaşa Şərqi Anadolu abidələrinin tədqiqata cəlb edilməsi ilə araşdırılmamış, Naxçıvanın Şərqi Anadolu ilə əlaqələrinə aid yalnız ümumi fikirlər söylənmişdir. Bu baxımdan Naxçıvanın Şərqi Anadolu abidələri ilə müqayisəli şəkildə öyrənilməsi olduqca əhəmiyyətlidir. Son Eneolit abidələrinin tədqiqi nəinki Naxçıvan və Şərqi Anadolu arasındakı iqtisadi-mədəni əlaqələri, həmçinin cəmiyyətin ictimai quruluşu və həyat tərzi ilə bağlı məsələləri araşdırmağa imkan verir. Yuxarıda qeyd etdiyimiz məsələlər mövzunun araşdırılmasının aktuallığını zəruri edən ən mühüm cəhətlərdəndir.

Araşdırmalar göstərir ki, qədim əkinçilik mədəniyyətlərinin formalaşmasında, həmçinin müxtəlif regionlardakı, konkret olaraq Naxçıvan və Şərqi Anadoludakı mədəniyyətlərin və mədəni əlaqələrin inkişafında xammal mənbələrinin mühüm əhəmiyyəti olmuşdur. Son Neolit dövründən başlayaraq Şərqi Anadolu obsidianının Naxçıvanda istifadə olunması da bu əlaqələrin mövcudluğunu göstərir. Ancaq bu əlaqələr indiyədək geniş şəkildə tədqiq edilib öyrənilməmişdir.

---

[2] Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı // Şərq qapısı. – 2012, 20 aprel. – s.1.

Naxçıvan ərazisində yerləşən abidələrin araşdırılması abidələrə yalnız yüksək dövlət qayğısı nəticəsində mümkün olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan abidələrinin tədqiq edilməsinin vacibliyi məsələsinə toxunaraq demişdir: "*Naxçıvanın qədim və son Orta əsrlərdəki tarixi daha geniş təhlil olunmalı, yazılmalıdır. Biz müstəqil dövlət olaraq tariximizi düzgün, doğru, kənar təzyiqlərdən azad şəkildə özümüz müəyyən edirik və edəcəyik*".[3]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Azərbaycan abidələrinin tədqiqinin genişləndirilməsi ilə bağlı xüsusi sərəncamlar imzalamışdır.[4]Naxçıvanın və Şərqi Anadolunun Son Eneolit dövrü abidələri müəyyən kitab və məqalələrdə öz əksini tapmışdır. Şərqi Anadolunun Eneolit dövrü abidələrinin öyrənilməsinə daha erkən başlanılmışdır. Türk tədqiqatçıları H.Z.Koşay və K.Turfan 1942-1944-cü illərdən başlayaraq Ərzurum yaxınlığında yerləşən Karaz, Pulur, Güzelova yaşayış yerlərində arxeoloji qazıntı aparmışlar.[5] Şərqi Anadolu yaşayış yerlərində 1967-ci ildən başlayaraq R.Whallon, S.Kantman, 1978-1986-cı illərdə U.Esinin, G.Arsebük, Van Loon, H.Hauptmann, M.Frangipane, Antonio Sagona və digərlərinin apardığı araşdırmaların mühüm əhəmiyyəti olmuşdur.[6] Arxeoloji materialların bir qismi tədqiqatçılar tərəfindən nəşr olunmuşdur.

---

[3]Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 19. – 2006. – s. 145-147.

[4]Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Xalq qəzeti. – 2008, 5 fevral. – s. 1.

[5]Koşay, H.Z., Turfan, K. Erzurum Karaz Kazısı Raporu // – Ankara: Belleten 23/91, – 1959. – s. 349-413; Koşay, H.Z., Vary, H. Pulur Kazisi 1960 Mevsimi Çalışmaları Raporu // – Erzurum: Atatürk Üniversitesi yayınları, – 1964. – s. 5-16.

[6]Esin, U. Değirmentepe (Malatya) Kurtarma Kazısı // Ankara: Kazı Sonuçları Toplantısı V, 1983, – 1984. – s. 71-80; Sagona, A., Sagona C. Excavations at Sos Höyük, 1998-2000: Fifth Preliminary Report // Ancient Near Eastern Studies, – 2000. 37, – p. 56–127.

1985-ci ildə V.Əliyevin Sədərək Eneolit yaşayış yerinin materiallarına həsr olunmuş məqaləsi nəşr olunmuşdur.[7]

Son Eneolit dövrü abidələrinin öyrənilməsində Naxçıvan MR Ali Məclisi Sədrinin 6 dekabr 2005-ci il Sərəncamının mühüm əhəmiyyəti olmuşdur. Sərəncama uyğun olaraq qeydə alınan abidələr haqqında 2008-ci ildə nəşr olunmuş "Naxçıvan abidələri ensiklopediyası"[8] və "Naxçıvanın arxeoloji abidələri" kitablarında məlumat verilmişdir.[9]

2006-cı ildə beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası V.Baxşəliyev, K.Maro və S.Aşurovun rəhbərliyi ilə Ovçulartəpə yaşayış yerində 2006-2013-cü illərdə aparılan araşdırmalar zamanı Son Eneolit dövrünə aid olduqca əhəmiyyətli arxeoloji komplekslər aşkar olunmuşdur. Qazıntıların nəticələri qazıntı müəlliflərinin 2009[10] və 2011-ci ildə[11] nəşr olunan məqalələrində, həmçinin 2010-cu ildə nəşr olunan "Ovçulartəpə" kitabında əks olunmuşdur. 2010-cu ildə V.Baxşəliyevin rəhbərliyi ilə Sirabçay vadisində aparılan arxeoloji araşdırmalar nəticəsində 23 yeni Eneolit yaşayış yeri aşkar olunmuşdur ki, onların da böyük bir qismi Son Eneolit dövrünə aiddir.[12]

---

[7]Əliyev, V.H. Sədərək Eneolit yaşayış yeri // – Bakı: Azərbaycan SSR EA Xəbərləri, – 1985. №2, – s. 61-67.

[8]Naxçıvan abidələri ensiklopediyası / Red. hey. sədri V.Y.Talıbov. – Naxçıvan: Əcəmi, – 2008. – 522 s.

[9]Baxşəliyev, V.B. Naxçıvanın arxeoloji abidələri / V.B.Baxşəliyev. – Bakı: Elm, – 2008. – s. 71-107.

[10]Marro, C, Yılmaz, Y. The Infant Jar-Burıals from the Late ChalcolıthıcVillage of Ovcular Tepesı (Nakhchıvan, Azerbaijan):a Mesopotamıan Tradıtıon // Studies on the Archaeology of the Ancient Near Eastin Honour of Antonio Sagona, – Paris: – 2018. – p. 29-48.

[11]Marro, C., Bakhchaliyev V. Ashurov S.Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan) // Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, – 2011. – p. 53-100.

[12]Baxşəliyev, V.B. Sirabda arxeoloji araşdırmalar / V.B.Baxşəliyev, Z.Novruzov. – Bakı: Oskar, – 2010. – s. 3-30.

Tədqiqat işlərində Z.Novruzov, N.Alıyev, K.Maro və digərləri iştirak etmişdir. Arxeoloji materialların bir qismi nəşr etdirilmişdir[13].

2013-2014-cü illərdə Sirabçay vadisində yerləşən Yeniyol və Şorsu yaşayış yerlərində V.B.Baxşəliyevin[14] rəhbərliyi ilə, Sirabçay vadisində yerləşən Zirincli, Şorsu[15] və Uçan Ağıl yaşayış yerlərində 2014-2015-ci illərdə V.Baxşəliyev və K.Maronun rəhbərliyi ilə beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası tərəfindən arxeoloji qazıntılar aparılmışdır. Ancaq qeyd etmək lazımdır ki, Arpaçay, Sirabçay və Naxçıvançay hövzəsinin arxeoloji abidələri Şərqi Anadolu abidələri ilə müqayisəli şəkildə tədqiq edilməmişdir ki, bu da mövzunun tədqiq edilməsinin aktual olduğunu bir daha təsdiq edir. Naxçıvanın və Şərqi Anadolunun Son Eneolit dövrü arxeoloji abidələrinin ümumiləşdirilərək monoqrafik şəkildə tədqiqinə böyük ehtiyac vardır.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiyada Arpaçay, Sirabçay və Naxçıvançay hövzəsində yerləşən arxeoloji abidələr, o cümlədən yaşayış yerləri və qəbir abidələri, həmçinin Anadolunun şərqində yerləşən yaşayış yerlərinin materialları tədqiqata cəlb edilmişdir. Dissertasiyada əsas tədqiqat obyekti arxeoloji araşdırmalar zamanı əldə edilən maddi-mədəniyyət nümunələri olmuşdur. Dissertasiyanın predmeti isə Son Eneolit dövründə Naxçıvan və Şərqi Anadolunun qədim mədəniyyətlərinin, həmçinin bu bölgədə yaşayan qədim tayfaların mədəni əlaqələrinin öyrənilməsidir. Arxeoloji materiallar arasında keramika məmulatı üstünlük təşkil edir. Tədqiqat zamanı Naxçıvan Dövlət Tarix Muzeyində və AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya Muzeyində saxlanılan, həmçinin arxeoloji ekspedisiyaların fondunda saxlanılan materiallar yenidən

---

[13] Baxşəliyev, V.B. Sirabda Eneolit dövrünə aid yeni abidələr // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2012. № 1, – s. 107-115; Baxşəliyev, V.B. Zirincli Eneolit dövrünə aid yaşayış yerlərindən biridir // –Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, – 2012. № 1, – s. 68-72.

[14] Бахшалиев, В.Б. Новые материалы эпохи неолита и энеолита на территории Нахчывана // – Москва: Российская археология, – 2015. № 2, – с. 136-145.

[15] Бахшалиев, В.Б. Новые энеолитические памятники на территории Нахчывана // – Москва: Российская археология, – 2014. № 1, – с. 83-90.

işlənərək ümumiləşdirilmişdir. Tədqiqat zamanı Şərqi Anadoluda və Naxçıvanda V.Baxşəliyevlə birlikdə apardığımız yerüstü araşdırmaların da materiallarından istifadə olunmuşdur. Dissertasiyada, həmçinin Naxçıvanın və Şərqi Anadolunun arxeoloji materiallarının öyrənilməsinə həsr olunmuş kitab və məqalələrdəki materiallardan da istifadə olunmuşdur.

Dissertasiya işinin yazılmasında AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Tarix Muzeyinin, Babək rayon Tarix-Diyarşünaslıq Muzeyinin, Şərur rayon Tarix-Diyarşünaslıq Muzeylərinin arxeoloji fondunda saxlanılan maddi-mədəniyyət nümunələrinin elmi təsvirləri, hesabatlar tədqiqata cəlb edilmişdir.

Dissertasiya işinin yerinə yetirilməsində Azərbaycan arxeoloqlarından Ə.K.Ələkbərov, O.H.Həbibullayev, V.H.Əliyev, V.B.Baxşəliyev, A.Q.Seyidov, S.H.Aşurov, B.İ.İbrahimli və Doğu Anadolunu tədqiq edən V. Sevin, H.Z.Koşay, K.Turfan, R.Whallon, S.Kantman, U.Esinin, G.Arsebük, Van Loon, H.Hauptmann, M.Frangipane, A.Sagona və digərlərinin əsərlərindən mənbə kimi istifadə edilmişdir. Ümumiyyətlə, Azərbaycan və dünya arxeoloqlarının mövzu ilə bağlı hesabatları, kitabları və məqalələri dissertasiya işinin yazılmasında geniş şəkildə istifadə olunmuşdur. V.B.Baxşəliyev, K.Maro, S.Aşurov və digər tədqiqatçıların Arpaçay, Naxçıvançay və Sirabçay hövzəsinin tədqiqi zamanı əldə etdiyi arxeoloji materiallar dissertasiya işinin yazılmasında əsas rol oynamışdır. Dissertasiyanın yazılmasında bizim iştirak etdiyimiz arxeoloji səfərlər zamanı aşkar olunan arxeoloji materiallar da istifadə edilmişdir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Arxeoloji araşdırmalar zamanı Naxçıvan ərazisində və Şərqi Anadoluda xeyli maddi-mədəniyyət nümunəsi aşkar olunmuşdur.[16] Arxeoloji abidələrin və bu abidələrdən aşkar olunan arxeoloji materialların tədqiqi zamanı başlıca olaraq aşağıdakı məqsəd və vəzifələr qarşıya qoyulmuşdur:

---

[16] Baxşəliyev, V.B. Sirabda Eneolit dövrünə aid yeni abidələr // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, – 2012. № 1, – s. 107-115; Esin, U., Arsebuk G. Tepecik ve Tülintepekazısı 1971 // Ankara: Keban Projesi 1971 Çalışmaları, – 1974. – s. 111-159.

- Yaşayış yerlərinin tipoloji və topoqrafik təsvirini vermək, aşkar olunmuş arxeoloji materialların tipoloji təsvirini vermək. Naxçıvanın və Şərqi Anadolunun maddi-mədəniyyət nümunələrini müqayisəli şəkildə öyrənmək;

- Eneolit dövründə meydana çıxan mövsümi yaşayış yerlərinin xarakterini müəyyən etmək və bu tip yaşayış yerlərinin meydana çıxmasını şərtləndirən amilləri müəyyənləşdirmək;

- Naxçıvan və Şərqi Anadolu abidələrindən aşkar olunmuş keramika məmulatının ümumi və xarakterik xüsusiyyətlərini ortaya çıxarmaq, arxeoloji mədəniyyətlərin yayılma istiqamətlərini və onların nisbi xronologiyasını müəyyənləşdirmək;

- Naxçıvanın və Şərqi Anadolunun Son Eneolit dövrünə aid arxeoloji materialları ümumiləşdirərək təhlil etmək, onların qrafik rəsmlərini hazırlamaq və nəşr olunmayanları elmi dövriyyəyə cəlb etmək;

- Naxçıvan və Şərqi Anadolunun arxeoloji abidələrindən aşkar olunmuş arxeoloji materialları Azərbaycan, Cənubi Qafqaz və Yaxın Şərq materialları ilə müqayisəli analiz kontekstində təhlil etmək, radiokarbon analizlər əsasında arxeoloji materialların mütləq xronologiyasını müəyyənləşdirmək;

- Müqayisəli və analitik təhlillər əsasında bu bölgədə yerləşən arxeoloji abidələrin Azərbaycan, Cənubi Qafqaz və Yaxın Şərq abidələri arasındakı yerini müəyyənləşdirmək;

- Son Eneolit mədəniyyətlərinin mənşəyi, formalaşmasına təsir edən amilləri, arxeoloji mədəniyyətlərin yayılması və dövrləşdirilməsi ilə bağlı məsələləri ümumiləşdirərək yekun nəticə çıxarmaq.

**Tədqiqatın elmi metodu**. Tədqiqat işində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və onun işini uğurla davam etdirən İlham Əliyev və Vasif Talıbovun sərəncamlarında, çıxış və nitqlərində irəli sürülən azərbaycançılıq ideologiyası əsas götürülmüş, arxeoloji materiallar Cənubi Qafqaz, Şərqi Anadolu və Yaxın Şərq abidələri kontekstində araşdırılmışdır. Dissertasiyanın yazılmasında yaşayış yerlərinin xarakterini, insanların həyat tərzini müəyyən etmək üçün topoqrafik təhlildən, arxeoloji materialların dəyərləndirilməsi üçün isə tipoloji və müqayisəli təhlil üsulundan istifadə olunmuşdur. Arxeoloji materialların dəyərləndirilməsində, Son Eneolit dövründə

regionda formalaşan mədəniyyətlərin Azərbaycan, Cənubi Qafqaz və Yaxın Şərq mədəniyyətləri arasındakı yerinin müəyyən edilməsi üçün analitik təhlil üsulu tətbiq edilmişdir.

Dissertasiyanın yazılması zamanı arxeoloji materialların tədqiq edilməsində O.H.Həbibullayev, V.H.Əliyev, İ.H.Nərimanov, Q.S.İsmayılzadə, C.Ə.Xəlilov, H.F.Cəfərov, V.B.Baxşəliyev, A.Q.Seyidov, B.İ.İbrahimli, S.H.Aşurov, K.Maro, S.Gülçür, U.Esin, G.Arsebük və digər görkəmli tədqiqatçıların əsərlərindən yararlanılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Naxçıvanın və Şərqi Anadolunun Son Eneolit dövrü arxeoloji mədəniyyətləri bu regionda məskunlaşan qədim tayfaların bir-biri ilə qarşılıqlı əlaqələri nəticəsində formalaşmış və mədəni və təbii-coğrafi amillərdən asılı olaraq özünəməxsus xüsusiyyətlər kəsb etmişdir;
- Son Eneolit dövrünün arxeoloji abidələri və bu abidələrdən aşkar olunan maddi-mədəniyyət nümunələri özünəməxsus xüsusiyyətləri ilə fərqləndiyindən ulu əcdadlarımızın həyat tərzini, ideoloji görüşlərini, iqtisadi-mədəni əlaqələrini öyrənmək üçün olduqca əhəmiyyətlidir;
- Naxçıvanın və Şərqi Anadolunun Son Eneolit mədəniyyətləri yerli Neolit və Eneolit mədəniyyətləri əsasında inkişaf edərək özünəməxsus xüsusiyyətlər kəsb etsə də tayfaların qonşuluqda yaşaması və regionun xammal mənbələri mədəniyyətlərarası əlaqələrin inkişaf etməsinə və onların bir-birinə təsir etməsinə imkan yaratmışdır.

**Tədqiqat işinin elmi yeniliyi**. Naxçıvan və Şərqi Anadolunun arxeoloji materiallarının müqayisəli təhlili nəticəsində bu regionlarda formalaşan Son Eneolit mədəniyyətinin xarakterik cəhətlərini müəyyən etmək mümkün olmuşdur. Tədqiqat işinin elmi yenilikləri aşağıdakılardır:

- Naxçıvan və Şərqi AnadolununSon Eneolit dövrü yaşayış yerləri, qəbir abidələri və bu abidələrdən aşkar olunan maddi-mədəniyyət nümunələri ilk dəfə müqayisəli təhlil əsasında ümumiləşdirilmiş, sistemləşdirilmiş və monoqrafik tədqiqata cəlb edilmişdir;
- Arxeoloji materiallar əsasında Son Eneolit dövrü mədəniyyətinin Naxçıvanda və Şərqi Anadoluda Neolit və Eneolit dövrünün

erkən mərhələlərinin ənənələri əsasında inkişaf etdiyi müəyyənləşdirilmişdir;

- Naxçıvan və Şərqi Anadolu abidələrindən aşkar olunan arxeoloji materialların, xüsusilə keramika məmulatının tipoloji analizi verilmiş, müqayisəli araşdırmalar, həmçinin karbon analizlər əsasında arxeoloji materialların nisbi və mütləq xronologiyası müəyyən edilmişdir;
- Araşdırmalar zamanı müəyyən edilmişdir ki, Son Eneolit dövründə Naxçıvanı əhatə edən Ovçulartəpə mədəniyyəti üçün xarakterik olan xüsusiyyətlər İqdır və Ağrı vadisində də yayılmışdır;
- Şərqi Anadolunun Malatya, Keban bölgəsində olan arxeoloji abidələrin keramikası ilə Naxçıvanın Son Eneolit keramikası arasında tipoloji baxımdan bənzərlik olsa da, Şərqi Anadolunun bu bölgəsinin keramikası rəng çalarlarına görə, Ovçulartəpə mədəniyyətindən fərqlənir və mənşə etibarı ilə Anadolunun Neolit və Eneolit mədəniyyəti ilə bağlıdır;
- Müəyyənləşdirilmişdir ki, Ovçulartəpə mədəniyyəti yerli Neolit və Erkən Eneolit mədəniyyətləri əsasında inkişaf edib formalaşmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işi zəngin arxeoloji və ədəbiyyat materialları əsasında yazılmışdır. Arxeoloji materialların böyük bir qismi ilk dəfə olaraq müqayisəli araşdırmaya cəlb edildiyi üçün Şərqi Anadolunun, Azərbaycanın, o cümlədən Naxçıvanın qədim tarixinin öyrənilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. Əldə edilən nəticələr gələcəkdə bu iki regionun arxeoloji mədəniyyətlərinin tədqiq edilməsində və onların qarşılıqlı əlaqələrinin, bir-birinə təsir istiqamətlərinin müəyyən edilməsi ilə bağlı problemli məsələləri həll etmək üçün istifadə oluna bilər. Son Eneolit dövründə Cənubi Qafqazın və Azərbaycanın heç bir rayonunda bir-birinə bu qədər yaxın, sıx yerləşmiş yaşayış yerinə rast gəlinməmişdir. Keramika məmulatı üzərindəki təsvirlər ulu əcdadlarımızın, xüsusilə Son Eneolit dövrü sakinlərinin həyat tərzini və ideoloji görüşlərini öyrənmək üçün olduqca əhəmiyyətlidir.

Dissertasiyada ümumiləşdirilən arxeoloji materiallardan, həmçinin çıxarılan elmi nəticələrdən Cənubi Qafqaz, Yaxın Şərq və Azər-

baycan arxeologiyasına aid ümumiləşdirici əsərlərin hazırlanmasında, Azərbaycan tarixinin yazılmasında, Azərbaycan tarixi və arxeologiyasına aid dərsliklərin yazılmasında da istifadə oluna bilər. Tədqiqat işi həmçinin gələcəkdə elmi-tədqiqat işlərinin yazılmasında, Tarix-Diyarşünaslıq muzeylərinin və müxtəlif sərgilərin təşkilində istifadə oluna bilər.

**İşin aprobasiyası və tətbiqi**. Dissertasiyanın mövzusu AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 19 yanvar 2016-cı il tarixli qərarı ilə təsdiq olunmuşdur. Dissertasiyanın mövzusu ilə bağlı beynəlxalq və Azərbaycan Respublikasında keçirilən konfranslarda məruzələr edilmiş, elmi məqalələr nəşr edilmişdir. Dissertasiya AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun "Qədim dövr arxeologiyası" şöbəsində, digər uyğun şöbələrin və Naxçıvan Dövlət Universiteti əməkdaşlarının iştirakı ilə müzakirə olunaraq müdafiəyə təqdim olunmuşdur. Tədqiqat işinin nəticələri arxeoloji materialların dövrləşdirilməsində, həmçinin tarix-diyarşünaslıq muzeylərinin, xüsusilə Şərur və Babək rayonunun tarix-diyarşünaslıq muzeylərinin sərgi salonlarının tərtibində tətbiq edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafia və Arxeologiya İnstitutunun "Qədim dövr arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və illusturasiyalardan ibarətdir. Giriş hissə 22.047, I fəsil 92.608, II fəsil 61.070, III fəsil 46.767, nəticə hissəsi isə 11.666 işaarədən ibarətdir. Ümumilikdə dissertasiya işində 210.077 işarə mövcuddur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** Naxçıvan və Şərqi Anadolunun Son Eneolit abidələrinin öyrənilməsinin aktuallığı əsaslandırılmış, mövzunun öyrənilmə dərəcəsindən bəhs edilmiş, elmi-tədqiqat işinin məqsəd və vəzifələri, tədqiqat metodu, müdafiəyə çıxarılan məsələlər, mövzunun elmi yeniliyi, aprobasiyası, onun nəzəri və praktiki əhəmiyyəti haqqında məlumat verilmişdir.

Dissertasiyanın I Fəsli "**Naxçıvanın arxeoloji abidələri**" adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. Bu fəslin "**Yaşayış yerləri**" adlanan birinci paraqrafında Naxçıvanın Son Eneolit dövrünə aid yaşayış yerləri və qəbir abidələri tədqiq edilmişdir. Birinci paraqrafın birinci bəndində "**Arpaçay vadisinin yaşayış yerləri**" araşdırılmışdır. Arpaçay vadisinin Son Eneolit mədədəniyyəti başlıca olaraq Ovçulartəpə yaşayış yeri[17] ilə bağlı olduğundan bu yaşayış yerində aparılan tədqiqatlar zamanı aşkar olunan tikinti qalıqları, həmçinin arxeoloji arxeoloji materiallar Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə müqayisəli şəkildə tədqiq edilmişdir. Ovçulartəpədə iki tikinti qatınının olduğu qeyd edilmişdir. Birinci tikinti qatı təkotaqlı yarımqazmalarla, ikinci tikinti qatı isə çoxotaqlı evlərlə xarakterizə olunur. Son Eneolit dövrünə aid materiallar həmçinin Xələc, Sədərək, Aşağı Daşarx, Şortəpə yaşayış yerlərindən də aşkar olunmuşdur. Birinci paraqrafın ikinci bəndində "**Sirabçay və Naxçıvançay vadisinin yaşayış yerləri**" araşdırılmışdır. Bu abidələr sırasına Eneolit dövrünə aid abidələrdən Sürümçək, Zirincli, Şorsu, Sərin bulaq, Yumru Sürümçək, Qaratəpə, Çay ağzı, Taxçalı, Güney ağıl, At ağıl və digərlərini aid etmək olar.[18] Bu abidələrin əksəriyyəti kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmiş, Şorsu, Yeniyol, Zirincli yaşayış yerlərində arxeo-

---

[17]Baxşəliyev, V. Ovçulartəpəsi / V.Baxşəliyev, C.Marro, S.Aşurov – Bakı: Elm, – 2010. – s. 4-28; Baxşəliyev, V., Marro, C., Aşurov, S. Son Eneolit və Erkən Tunc dövrünə aid Ovçulartəpəsi yaşayış yeri // – Bakı: Azərbaycanın erkən əkinçilik dövrü abidələri, – 2012. – s. 78-87.

[18]Baxşəliyev, V. Sirabda arxeoloji araşdırmalar / V.Baxşəliyev, Z.Novruzov – Bakı: Oskar, – 2010. – s. 15-70.

loji qazıntı aparılmışdır. Arxitektura qalıqları yalnız Şorsu və Yeniyol yaşayış yerində aşkar olunmuşdur. Bəzi yaşayış yerlərində heyvan sümüklərinin çox az tapılması (Şorsu), digərlərində isə (Zirincli) gil qəlib və mis minerallarının aşkar olunması bu yaşayış yerlərində insanların metalişləmə və metallurgiya ilə də məşğul olduğunu göstərir. Son Eneolit dövrünə aid qəbir abidələri yalnız Ovçulartəpənin arxeoloji materialları ilə təmsil olunmuşdur.[19] Birinci paraqrafın **"Qəbir abidələri"** adlanan üçüncü bəndində Ovçulartəpədən aşkar olunan qəbirlər torpaq qəbirlər və küp qəbirlər olmaqla iki yerə bölünərə təsnif edilmişdir.

I Fəslin "**Arxeoloji materialların təhlili**" adlı ikinci paraqrafında Naxçıvanın Son Eneolit dövrü abidələrindən aşkar olunmuş arxeoloji materialların tipoloji, Cənubi Qafqaz və Yaxın Şərq ölkələrinin materialları ilə müqayisəli təhlili verilmişdir. Ovçulartəpə yaşayış yerinin keramikası yaşayış yerinin stratiqrafiyasına uyğun olaraq iki mərhələyə ayrılaraq araşdırılmışdır. Ovçulartəpənin hər iki mərhələsi üçün daraq basqısı, barmaq basqısı, məməcikşəkilli qabarıq ornamentlə naxışlanmış, halqavari relyef çənbərlə əhatə edilmiş keramika xarakterikdir.[20] Konusvarı və qabarıq kasalar, küpə tipli qabların hazırlanmasında varislik aydın hiss olunur. Keramika məmulatının əsas hissəsi düz ağız kənarlı sadə kasalardan yaxud ağız kənarı xaricə qatlanmış gen ağızlı küpələrdən ibarətdir. Lakin ikinci mərhələdə üç qulplu, darboğazlı küpələr aradan çıxır, belə küpələr kərpic tikintilər dövründən məlum deyil. Ovçulartəpənin bütün tikinti dövrlərindən aşkar olunan keramika məmulatının araşdırılması göstərir ki, erkən və son mərhələnin keramikası arasında nəzərəçarpacaq dəyişiklik yoxdur. Halqaşəkilli relyef ornamentlə naxışlanmış və məməcikşəkil-

---

[19]Marro, C, Yılmaz, Y. The Infant Jar-Burıals from the Late ChalcolıthıcVillage of Ovcular Tepesı (Nakhchıvan, Azerbaijan):a Mesopotamıan Tradıtıon // Studies on the Archaeology of the Ancient Near Eastin Honour of Antonio Sagona, – Paris: – 2018. – p. 29-48.

[20]Marro, C., Bakhchaliyev V. Ashurov S.Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan) // Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, – 2011. – p. 87, pl. I.

li çıxıntılarla naxışlanan qablar da hər iki mərhələ arasında varislik olduğunu təsdiq edir.[21] Bu dövrə aid olan üzəri qabarıq keçi təsvirləri ilə naxışlanmış küpələr sənətkarlıq baxımından olduqca diqqətəlayiqdir. Araşdırmalar hər iki mərhələyə aid keramika məmulatının müəyyən texnoloji və morfoloji xüsusiyyətlərlə fərqlənməsinə baxmayaraq, ikinci mərhələyə aid keramikanın birinci dövrün ənənələri əsasında inkişaf edərək formalaşdığını göstərir. Bu baxımdan deyə bilərik ki, hər iki mərhələ eyni mədəniyyətə aiddir. Fikrimizə görə, tədqiqatçılar tərəfindən bu özünəməxsus xüsusiyyətləri ilə fərqlənən bu tip keramikanın Ovçulartəpə mədəniyyəti adlandırılması düzgündür. Araşdırmalara əsaslanaraq Xələc və Sədərəkdən aşkar olunan keramikanın Ovçulartəpənin ikinci mərhələsi ilə, Ərəbyengicə keramikasının isə Sirabçay vadisinin arxeoloji materialları ilə həmdövr olduğunu demək olar.

İkinci paraqrafın ikinci bəndində “**Sirabçay və Naxçıvançay vadisinin Son Eneolit keramikası**” araşdırılmış, bölgədə yayılan Son Eneolit mədəniyyətinin Ovçulartəpə mədəniyyətinin davamı olduğu göstərilmişdir. Ümumiyyətlə, Azərbaycanın Son Eneolit abidələrinin tədqiqi bu dövrdə bir-birindən fərqlənən mədəniyyətlərin mövcud olduğunu göstərir.[22] Sirabçay vadisində yayılan keramika nümunələrində, xüsusilə Şorsu yaşayış yerində Leylatəpə mədəniyyətinə məxsus elementlərin olduğu müəyyənləşdirilmiş, lakin bu məsələ geniş şəkildə tədqiq olunaraq nəşr edilməmişdir. Araşdırmalar göstərir ki, Naxçıvanın Son Eneolit dövrü keramikası tipoloji cəhətdən Norşuntəpə keramikası ilə bənzər olsa da, texnoloji xüsusiyyətlərinə görə Norşuntəpənin tünd rəngli keramikasından[23] fərqlənir. Ovçulartəpədə, Sirabçay və Naxçıvançay vadisinin keramika məmulatının araşdırılması Naxçıvanın Son Eneolit dövrü keramikasının Ur-

---

[21]Baxşəliyev, V. Ovçulartəpəsi / V.Baxşəliyev, C.Marro, S.Aşurov – Bakı: Elm, – 2010. – s. 12.
[22]Алиев, Н. Культура северного Азербайджана в эпоху позднего энеолита / Н.Алиев, И. Нариманов – Баку: Агрыдаг, – 2001. – с. 80-92.
[23]Hauptmann, H. Die Grabungen aus dem Norsuntepe, 1973 // – Ankara, In Keban Project 1973 Activities, Series I. № 6, – 1979. – p. 61-78.

miya hövzəsinin keramikası ilə daha yaxın bağlı olduğunu təsdiq etməklə, bu regionda formalaşan mədəniyyətin geniş arealı əhatə etdiyini göstərir.

İkinci paraqrafın üçüncü bəndində "**Əmək alətləri**" araşdırılmışdır. Daşdan, sümükdən və tuncdan hazırlanan əmək alətləri arasında obsidian alətlər xüsusilə diqqəti cəlb edir. Azərbaycanın qədim yaşayış yerlərində başlıca olaraq Paravan, Kəlbəcər və Zəngəzur yataqlarından,[24] Naxçıvanda Göyçə və Zəngəzur yataqlarından[25] geniş istifadə olunmuşdur ki, bu da qədim əkinçi-maldar tayfaların əlaqələrinin istiqamətlərini göstərir. Zəngəzur obsidianından istifadə Azərbaycanda Mil, Muğan və Naxçıvanda yaşayan əhali arasında iqtisadi-mədəni əlaqələrin inkişafında müəyyən rol oynamışdır. Araşdırmalara əsasən belə nəticəyə gəlmək olar ki, Dərələyəz və Zəngəzur yaylaqları Naxçıvan Qarabağ və Urmiya hövzəsində məskunlaşan qədim əkinçi-maldar tayfaların yaylaqları olmuşdur. Göyəm, Gəmiqaya və Kəlbəcərdə aşkar olunan qaya təsvirləri də bu dağların maldar tayfalar tərəfindən məskunlaşdırıldığını təsdiq edir. Belə hesab edirik ki, qədim insanların qədim əkinçilik mədəniyyətləri üçün mühüm əhəmiyyət daşıyan mis və obsidian kimi xammalla tanış olmasında köçmə maldarlığın mühüm əhəmiyyəti olmuşdur. Ehtimal ki, Naxçıvan Qarabağ və Urmiya hövzəsində məskunlaşan qədim əkinçi-maldar tayfalar arasında iqtisadi-mədəni əlaqələrin və bu bölgələrin mədəniyyətində ümumi elementlərin yaranmasında da[26] köçmə maldarlığın əhəmiyyəti olmuşdur.

İkinci paraqrafın dördüncü bəndi "**Metallurgiya və metalişləmə**" adlanır. Arxeoloji araşdırmalar zamanımüəyyən edilmişdir ki, Azərbaycan, o cümlədən Naxçıvan Cənubi Qafqazın qədim metallur-

---

[24]Нариманов, И.Г. Культура древнейшего земледелъцеского-скотоведческого населения Азербайджана / И.Г.Нариманов. – Баку: Элм, – 1987. – с. 97.

[25]Baxşəliyev, V.B. Naxçıvanda 2018-ci ilin arxeoloji araşdırmaları / V.B.Baxşəliyev. – Naxçıvan: Əcəmi, – 2019. – s. 18.

[26]Bahşeliyev, V. Azerbaycan'ın Son Neolitik ve İlk Kalkolitik Çağ Kültürlerinin Kuzeybatı İran ile (İran Azerbaycanı) İlişkileri // Ankara: TUBA-AR, – 2020, 27, – s. 11-27.

giya mərkəzlərindən biri olmuşdur. Naxçıvanda mis və arsen[27] və onun yaxınlığında yerləşən Zəngəzur dağlarında zəngin mis yataqlarının olması[28] qədim dövrdən burada metallurgiyanın yerli zəmində inkişafına şərait yaratmışdır. Ovçulartəpədən aşkar olunan tunc baltalar, körük ucluğu Zirinclidən və Qahabdan tapılan qəlib Eneolit dövrünün sonunda tökmə texnologiyasının inkişaf etdiyini göstərir. Duzdağda aparılan beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının apardığı araşdırmalar Naxçıvanda mədənçiliyin Eneolit dövründə geniş inkişaf etdiyini təsdiq edir. Duzdağda aparılan araşdırmalar zamanı qədim duz mədənlərinin ətrafından Eneolit dövrünə aid və Kür-Araz mədəniyyətinə aid keramika nümunələri aşkar olunmuşdur. Duzdağdan, həmçinin dağ-mədən işlərində işlədilən müxtəlif əmək alətləri də aşkar olunmuşdur ki[29], bu da Naxçıvanda mədənçiliyin qədim tarixə malik olduğunu təsdiq edir.

İkinci paraqrafın "**Əkinçilik və maldarlıq**" adlı beşinci bəndində aparılan araşdırmalar Son Eneolit dövründə əkinçilik və maldarlığın iqtisadiyyatda əsas yer tutduğunu göstərir. Taxıl dənlərinin analizi arpa [*Hordeum*] qalıqlarının çox olduğunu göstərir. Buğda [*Triticum*] qalıqlar olduqca azdır. Taxıl dənlərinin tədqiqi zamanı *Aegilops, panicoid grasses və Cyperaceae* tipli alaq otlarının aşkar olunması tədqiqatçıların fikrinə görə, taxılın yerli istehsala məxsus olduğunu göstərir.[30] Ümumiyyətlə, Ovçulartəpədən əldə olunan heyvan sümüklərinin araşdırılması balıqçılığın və xırdabuynuzlu heyvandarlığın

---

[27]Абибуллаев, О.А. К вопросу о древней металлургии Азербайджана // – М–Л: МИА СССР, – 1965. № 125, – с. 65-73; Бахшалиев, В.Б. Металлургия и металлообработка на территории древней Нахичевани / В.Б.Бахшалиев. – Баку: Элм, – 2005 – с. 16-29.

[28]Иессен, А.А. К вопросу о древнейшей металлургии меди на Кавказе // Известия Государственной Академии Истории Маеериальной Культуры, М.-Л: – 1935, 120, – с. 7-216.

[29]Marro, C., Bakhchaliyev V., Sanz S. Arkhaeological investigation on the salt mine of Duzdagi (Nakhchivan, Azerbaijan) // Ankara: TÜBA-AR 13, – 2010. – p. 229-244.

[30]Baxşəliyev, V. Ovçulartəpəsi / V.Baxşəliyev, C.Marro, S.Aşurov – Bakı: Elm, – 2010. – s. 18-19.

yaşayış yerinin təsərrüfatında mühüm yer tutduğunu göstərir. Ovçulartəpə sakinlərinin maldarlıqda xırdabuynuzlu heyvanlara üstünlük verməsi, sübhəsiz ki, köçmə maldarlığın inkişafı ilə bağlı olmuşdur. Ovçulartəpə obsidianlarının böyük bir qisminin Göyçə hövzəsindən gətirilməsi də bu dövrdə uzaq məsafələrlə əlaqələrin olduğunu göstərir ki, bu köçmə maldarlığın inkişafı ilə bağlı ola bilərdi.

İkinci paraqrafın "**Obsidian yataqları**" adlanan altıncı bəndində aparılan araşdırmalar bu bölgəyə ən yaxın obsidian yataqları Zəngəzur dağlarında yerləşdiyini göstərir. Naxçıvançay və Sirabçay hövzəsində yerləşən arxeoloji abidələrin tədqiqi qədim Naxçıvan tayfalarının həm Zəngəzur, həm də Göyçə obsidianından geniş istifadə etdiyini, Naxçıvançay vadisi boyunca qədim yolların keçdiyini göstərir.[31] Ovçulartəpə yaşayış yerində alətlərin yenidən işlənərək istifadə olunması obsidian təminatında kəsinti olduğunu göstərir. Bunun səbəbi hələlik tam aydınlaşdırılmasa da, tədqiqatçıların fikrinə görə, bu, Kür-Araz tayfalarının bölgədə aktivləşməsi ilə bağlı ola bilərdi. Deyə bilərik ki, obsidian xammalı Naxçıvan və Şərqi Anadolunun qədim əkinçilik mədəniyyətlərinin inkişafında, həmçinin bölgələr arasındakı iqtisadi-mədəni əlaqələrin təmin olunmasında mühüm yer tutmuşdur.

Dissertasiyanın II Fəslində **"Şərqi Anadolunun arxeoloji abidələri"** tədqiq olunmuşdur. Şərqi Anadolu tarixinin önəmli bir dövrü Son Eneolit dövrüdür. Bu dövrdə əhali artımı sayəsində yeni yaşayış yerləri meydana gəlmişdir. Bəzi tədqiqatçılar boğazlar üzərindən gələn köçlərin yerli mədəniyyətlərin formalaşmasında rol oynadığını söyləsə də, Şərqi Anadolunun Son Eneolit Dövrü mədəniyyəti Şimali Mesopotamiya, Şimal-Qərbi İran və Cənubi Qafqazla müəyyən dərəcədə bağlı olmuşdur. II Fəslin "**Yaşayış yerləri**" adlı birinci paraqrafında Şərqi Anadoluda yerləşən Dəyirmantəpə, Arslantəpə, Norşuntəpə, Tülkütəpə, Tülintəpə, Təpəcik,[32] Korucutəpə, Sos Höyük və digər yaşayış yerlərində aparılan arxeoloji tədqiqatlar, həmçinin Aştə-

---

[31]Kuliyeva, Z., Bahşeliyev, V. Nahçıvan'ın Kalkolitik Çağ Kültürü (Azerbaycan) // – Ankara: TUBA-AR, – 2018, 23, – s. 29-52.
[32]Esin, U. Tülintepe Excavations, 1972 // – Ankara: İn Keban Project Publications I/5. – 1976. – p. 147.

pə, Çimən, Çolpan, Hanaqo, Sarıgül[33] və digər yaşayış yerlərinin araşdırılması zamanı əldə edilən yerüstü materiallar haqqında məlumatlar ümumiləşdirilmişdir. Bu yaşayış yerlərindən aşkar olunan arxeoloji materiallar II Fəslin "**Arxeoloji materialların təhlili**" adlı ikinci paraqrafında geniş təhlil edilmişdir.

Şərqi Anadolunun arxeoloji abidələrindən aşkar olunan arxeoloji materialların əksəriyyəti keramika məmulatından ibarətdir. Keramika məmulatının əksəriyyəti saman qatılmış gildən hazırlanaraq orta dərəcədə yaxşı bişirilmişdir. Keramika nümunələrinin bəzisi qırmızı, bəzisi isə boz rəngli gildən hazırlanmışdır. Onların divarları arasında bişməmiş boz lay saxlanmışdır. Keramika məmulatının bəzisi xaricdən, bəzisi isə içəridən daraqvari alətlə naxışlanmışdır. Bu tip keramika əsasən Doğubəyazitdə Hanaqo yaşayış yerindən aşkar olunmuşdur. Qeyd edək ki, bu tip keramika, həmçinin Ovçulartəpə yaşayış yeri üçün xarakterikdir. Tədqiqatçıların fikrinə görə, bu tip daraqlama naxış olmaqdan daha çox qabların səthinin düzəldilməsinə xidmət etmişdir. S.Gülçür və K.Maronun fikrinə görə, qablar gil layları bir-birinin üzərinə qoymaqla hazırlandığı üçün daraqvari alətlə düzəldilmiş və layların qovuşma izləri itirilmişdir.[34] Keramika məmulatı kasa, küpə və çölmək tipli qabların parçalarından ibarətdir. Arxeoloji materialların tipoloji təhlili Şərqi Anadolunun keramika məmulatı ilə Naxçıvanın keramika məmulatı arasında forma, texnoloji və morfoloji baxımdan müəyyən bənzərliyin olduğunu göstərir. Naxçıvan abidələrində əsasən çəhrayı rəngli keramika üstünlük təşkil etdiyi halda, Şərqi Anadolunun bəzi abidələrində qara rəngli və qrafitlənmiş keramika üstünlükdədir. Bu baxımdan Naxçıvanın Son Eneolit keramikası İqdır-Ağrı ovalığının materialları ilə daha yaxındır. Keramika məmulatının texnoloji tədqiqi Naxçıvanın Son Eneolit keramikasının

---

[33]Özfırat, A., Marro, C. 2004 Yılı Van, Ağrı ve Iğdır İlleri Yüzey Araştırması // – Ankara: Türk Arkeoloji ve Etnografi Dergisi, – 2007, – s. 16-17.

[34]Gülçur, S., Marro C. The view from the north: comparative analysis of the Chalcolithic pottery assemblages from Norşuntepe and Ovçular Tepesi // After the Ubaıd: Interpreting Change from the Caucasus to Mesopotamia at the Dawn of Urban Civilization (4500-3500 BC). –Paris: – 2012, – p. 312.

yerli Neolit keramikası əsasında, Şərqi Anadolunun Son Eneolit keramikasının isə Anadolunun Neolit keramikası əsasında meydana gəldiyini deməyə imkan verir. Lakin Naxçıvan və İqdır-Ağrı ovalığı arasındakı tipoloji və texnoloji bənzərlik onların eyni mədəniyyətə aid olduğunu deməyə imkan verir.

Dissertasiyanın III Fəsli "**Naxçıvan və Şərqi Anodolu abidələrinin ortaq xüsusiyyətləri və xronologiyası**" adlanır. Araşdırmalar göstərir ki, Naxçıvan və Şərqi Anadolunun Son Eneolit dövrü maddi-mədəniyyətində bir sıra ortaq xüsusiyyətlər vardır. Bu xüsusiyyətlər həm arxitektura qalıqlarında, həm də keramika məmulatında izlənir. III Fəslin birinci paraqrafında "**Arxitekturada izlənən ortaq xüsusiyyətlər**" tədqiq edilmişdir. Evlərin dördkünc formalı olması və kərpicdən inşa edilməsi hər iki bölgənin xarakterik əlamətidir. Lakin Norşuntəpədə evlər bir-birinə bitişik halda inşa edildiyi halda bundan fərqli olaraq Ovçulartəpədə evlər qrup halında inşa edilmişdir. Məlum olduğu kimi, Son Eneolit dövrünə aid dördkünc formalı arxitekturaya Yeniyol yaşayış yerində də rast gəlinmişdir.

Üçüncü paraqrafın ikinci bəndində **"Keramikada izlənən ortaq xüsusiyyətlər**" araşdırılmışdır. Şərqi Anadolu və Naxçıvanın Son Eneolit dövrü keramikasında texnoloji və morfoloji baxımdan bir sıra ortaq xüsusiyyətlər izlənmişdir. Bu tip keramika məmulatının ilk nümunəsi manqallardır.[35] Ovçulartəpədə və Norşuntəpədə aşkar olunan bu tip qablar demək olar ki, eyni formalıdır. Eyni tipli keramika məmulatının müəyyən hissəsi də kub formasında hazırlanan ayaqlıqlar və süzgəclərdir. Bu tip keramika Ovçulartəpə, Tülintəpədən və Norşuntəpədən məlumdur. Ovçulartəpə və Norşuntəpə keramika nümunələrinin naxışlanma motivində də bənzərlik var. Həm naxışların icra texnikası, həm də naxış motivləri bənzərdir. Naxışlar, basma, çərtmə, qabartma və boya ilə icra olunmuşdur. Lakin hər iki bölgənin keramika məmulatının naxışlanmasında müəyyən fərqlər də vardır ki,

---

[35] Gülçur, S., Marro C. The view from the north: comparative analysis of the Chalcolithic pottery assemblages from Norşuntepe and Ovçular Tepesi // After the Ubaıd: Interpreting Change from the Caucasus to Mesopotamia at the Dawn of Urban Civilization (4500-3500 BC). –Paris: – 2012, – p. 305-352.

bu da onların yerli istehsal məhsulu olması ilə bağlıdır. Keramika nümunələrinin bəzisi relyef kəmər üzərindən çərtmələr, bəzisi isə barmaq basqısı ilə naxışlanmışdır. Ovçulartəpə keramika nümunələri çəhrayı rəngli və saman qarışıq gildəndir. Norşuntəpədə bu tip ornamentlər I mərhələdən başlayaraq III mərhələyədək davam etmişdir. Dörd, yaxud beşdişli darağın basqısı ilə naxışlanmış keramika azdır. Norşuntəpədə bu tip ornamentlə naxışlanmış bütöv qablar tapıldığı halda, Ovçulartəpədə yalnız bir keramika parçasında bu tip ornamentə rast gəlinmişdir. Keramika məmulatında rast gəlinən ornamentlərin bir qrupu məməcikşəkilli ornamentlə təmsil olunmuşdur. Bu tip ornamentlər yuxarıda qeyd etdiyimiz kimi, Tülintəpə keramikasında geniş təmsil olunmuşdur. Norşuntəpədə bu tip ornament I mərhələdən III mərhələyədək davam etmişdir. Bu tip ornament Şomutəpə,[36] Kültəpə və Naxçıvantəpə[37] yaşayış yerlərindən məlumdur. Bənzər keramika məmulatının bir qismi də relyef heyvan təsvirlərindən ibarətdir. Norşuntəpə və Tülintəpədə heyvan təsvirlərinə qara rəngli cilalanmış keramikada rast gəlinmişdir. Bu tip keramika Norşuntəpədə həm I, həm də II və III mərhələdə vardır. Tülintəpənin keramika nümunələrində relyef heyvan təsvirləri ilə bərabər insan təsvirləri də mövcuddur.[38] Hər iki region üçün bənzər olan keramika məmulatının bir qismi də ağız kənarı çərtmələrlə naxışlananlardır. Ağız kənarı çərtmə ornamentlə naxışlanmış Sioni tipli keramika Ovçulartəpədə azdır. Bu tip keramika nümunələrinin çoxu saman qarışıq gildən hazırlanması və qırmızı rəngdə bişirilməsi ilə fərqlənir. Norşuntəpə və Ovçulartəpə keramika məmulatı arasında forma və naxışlama motivi baxımından müəyyən bənzərlik olsa da, hər iki yaşayış yerinin özünəməxsus xüsusiyyətləri də vardır.

---

[36]Ахундов, Т.И. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Шомутепе / Т.И.Ахундов. – Баку: Наука, – 2012. – с. 376-378.

[37]Naxçıvantəpə yaşayış yerində arxeoloji tədqiqatlar / V.Baxşəliyev, Z.Quliyeva, T.Həşimova [və b.] – Naxçıvan: Əcəmi, – 2018. – s. 124.

[38]Esin, U. The relief decorations on the Prehistoric pottery of Tülintepe in Eastern Anatolia // Between the Rivers and over the Mountains. – Roma: Università di Roma “La Sapienza”, – 1993. – p.112.

İkinci paraqrafın birinci bəndində **“Naxçıvan keramikasının özünəməxsus xüsusiyyətləri**” araşdırılmışdır. Naxçıvan keramikasının özünəməxsus xüsusiyyətləri Ovçulartəpə yaşayış yerində izlənmişdir. Belə keramika nümunələrinin biri kiçikhəcmli bardaq tipli qabdır. Ovçulartəpə üçün xarakterik olan keramika nümunələrindən biri də manqalın alt hissəsidir. Bu tip qablar bütöv şəkildə aşkar olunmamışdır. Onların gövdəsi kiçikhəcmli dairəvi deşiklərlə əhatə olunmuşdur. Bu tip qablar Kür vadisində yerləşən Son Eneolit dövrünə aid müxtəlif abidələrdən, o cümlədən Böyük Kəsik yaşayış yerindən aşkar olunmuşdur.[39] Qabarıq gövdəli, ağzı bir qədər içəri yığılan, oturacağı içəriyə doğru batıq olan kasalar da Ovçulartəpə yaşayış yerinin xarakterik keramika nümunələrindəndir. Bu tip keramika nümunələri saman qarışıq gildən hazırlanmış və hər iki mərhələnin keramika məmulatında təsbit edilmişdir. Şargövdəli iki qulplu, yaxud üç qulplu küpələr də Ovçulartəpənin xarakterik keramika nümunələrindəndir. Onlar şargövdəli və dar boğazlıdır. Qabların xarici səthi daraqvari alətlə düzəldilmişdir. Keramika nümunələrinin bir qismi ağzının kənarı dalğaşəkilli olan küpələrdir. Ovçulartəpə üçün xarakterik olan keramika nümunələrinin bir qrupu da üzərində “V” şəkilli işarə olan keramika nümunələridir. Bu tip keramika məmulatı yalnız bir neçə nümunə ilə təmsil olunur. Bu tip işarələrə Xabur hövzəsində Tell Brak və Tell Ziyad yaşayış yerlərində, həmçinin Oylum Höyük və Horom Höyükdə rast gəlinmişdir.[40]

İkinci paraqrafın ikinci bəndində “**Şərqi Anadolu keramikasının özünəməxsus xüsusiyyətləri**” tədqiq edilmişdir. Şərqi Anadolu keramikasının özünəməxsus xüsusiyyətləri Tülintəpə və Norşuntəpə yaşayış yerinin keramikasında izlənmişdir. Norşuntəpə yaşayış yerindən aşkar olunan bəzi keramika nümunələri yalnız bu yaşayış yeri üçün xarakterik olub, digər yaşayış yerlərində belə keramikaya rast

---

[39]Müseyibli, N. Böyük Kəsik eneolit yaşayış məskəni / N.Müseyibli, – Bakı: Nafta-Press, – 2007. – 228 s.
[40]Özgen, E., Helwing B., Engin A., Niewenhuyse O., Spoor R. Oylum Höyük 1997-1998. Die spatchalkolitische Siedlung auf der Westterrasse // – Paris: Anatolia Antiqua VII, – 1999. – p. 19-67.

gəlinmir. Lakin, qeyd etmək lazımdır ki, bu tip keramika nümunələri olduqca azdır. Norşuntəpə üçün xarakterik olan qabların bir qrupu bikonik gövdəli və yuvarlaq oturacaqlı, digərləri isə silindrik-konusvari formalı dayaz kasalardır. Bu tip kasaların yaxşı hazırlanmış nümunələri Hamoukar və Tell Feres yaşayış yerlərində məlumdur.[41] Ağzının kənarı köbəli olan kasalar, konusvari və bikonik gövdəli buxurdan tipli keramika nümunələri də Norşuntəpənin xarakterik keramika nümunələrindəndir. Araşdırmalar göstərir ki, Ovçulartəpə və Norşuntəpə keramikası həm bənzər xüsusiyyətlərə malikdir, həm də hər bir yaşayış yeri üçün xarakterik olan keramika nümunələri vardır. Bu isə Son Eneolit mədəniyyətinin müxtəlif regionlarda özünəməxsus inkişaf xüsusiyyətlərinə malik olduğunu göstərir. İstər Norşuntəpə və Tülintəpədə, istərsə də Ovçulartəpədə bənzər formalar çox azdır. Ağzının kənarı xaricə qatlanmış yuvarlaq gövdəli çölməklər Norşuntəpədə geniş yayıldığı halda, bu tip qablar Ovçulartəpədə azdır. Digər tərəfdən Ovçulartəpədə bu tip qablar saman qarışıq keramika ilə təmsil edildiyi halda bu tiplər Norşuntəpədə tünd rəngli cilalanmış keramikada görünür və daha əvvəlki mərhələlərdən məlumdur. Ehtimal ki, bu Norşuntəpənin alt qatlarının Ovçulartəpə ilə müqayisədə daha qədim dövrə aid olması ilə bağlıdır. Norşuntəpənin qırmızı rəngli samanlı keramikası ilə tünd rəngli cilalı keramikası arasındakı münasibətlər hələlik tam müəyyən edilməsə də, erkən mərhələ üçün xarakterik olan formaların hər iki tip keramikada sonrakı mərhələlərdə davam etməsi olduqca maraq doğurur. Digər tərəfdən isə, keramika məmulatının naxışlanmasında istifadə olunan qabarıq kəmər üzərindən vurulan barmaq basqıları, ilanvari qabarıq kəmərlər, məməcikşəkilli ornamentlərin kompozisiyasının tam bənzərliyi də olduqca maraq doğurur. Şübhəsiz ki, keramika məmulatında həm forma, həm də naxış motivi baxımından bənzərliyin olması bu iki region arasında iqtisadi-mədəni əlaqələrin olduğunu

---

[41] Gülçur, S., Marro C. The view from the north: comparative analysis of the Chalcolithic pottery assemblages from Norşuntepe and Ovçular Tepesi // After the Ubaıd: Interpreting Change from the Caucasus to Mesopotamia at the Dawn of Urban Civilization (4500-3500 BC). – Paris: – 2012, – p. 322.

göstərir. Araşdırmalar Şərqi Anadolu və Naxçıvanın Son Eneolit keramikasının yerli ənənələr əsasında inkişaf etdiyini, onların bir-birinə təsir etdiyini deməyə əsas verir.

III Fəslin üçüncü paraqrafında "**Son Eneolit dövrü materiallarının xronologiyası**" ilə bağlı məsələlər araşdırılmışdır. İndiyədək Eneolit dövrü abidələrinin dövrləşdirilməsi ilə bağlı müxtəlif fikirlər söylənmiş, Naxçıvan və Şərqi Anadolunun Son Eneolit dövrü abidələri də fərqli şəkildə dəyərləndirilmişdir. Qeyd etdiyimiz kimi, Neolit abidələri Eneolit dövrünə aid edildiyindən bəzi tədqiqatçılar xronoloji boşluğu doldurmaq üçün Ovçulartəpə kimi Son Eneolit abidələrini Orta və Son Eneolit kimi dəyərləndirmək istəmişlər.[42] Halbuki, I Kültəpənin keramika məmulatı ilə Ovçulartəpənin keramikası arasında tipoloji baxımdan müəyyən fərqlər var idi. Bununla belə, I Kültəpə Son Neolit dövrünə, Ovçulartəpə isə Son Eneolit dövrünə aid edildikdən sonra bu dövrlər arasında müəyyən boşluq yaranmışdı. Bu boşluq V.B.Baxşəliyevin 2010-2017-ci illərdə aşkar etdiyi yeni abidələrin tədqiqi ilə dolduruldu. Belə ki, Naxçıvançay vadisində aşkar olunan Naxçıvantəpə yaşayış yerinin tədqiqi bu yaşayış yerinin e. ə. VI minilliyin sonu və V minillikdə məskunlaşdırıldığını göstərmişdir.[43] V.B.Baxşəliyev bu yaşayış yerində insanların Son Neolit, Erkən Eneolit və Orta Eneolit dövründə məskunlaşdığını qeyd etmişdir. Sirabçay vadisində aparılan araşdırmalar zamanı Orta Eneolit dövrünə aid Uçan Ağıl, Uzunoba və Bülövqaya yaşayış yerləri aşkar edilmişdir. Bu abidələrin keramikası Sirabçay vadisinin Son Eneolit abidələrindən müəyyən tipoloji xüsusiyyətləri ilə fərqlənirlər. Lakin bu mədəniyyətlərin ardıcıl inkişafı və bir-birinin davamı olması heç bir şübhə doğurmur. Naxçıvanın Son Eneolit abidələri Gürcüstanda aşkar olunan Sioni mədəniyyəti ilə həmdövrdür. Lakin Cənubi Qafqazın

---

[42]Baxşəliyev, V. Ovçulartəpəsi / V.Baxşəliyev, C.Marro, S.Aşurov – Bakı: Elm, – 2010. – s. 6.

[43]Bahşeliyev, V. Azerbaycan'ın Son Neolitik ve İlk Kalkolitik Çağ Kültürlerinin Kuzeybatı İran ile (İran Azerbaycanı) İlişkileri // Ankara: TUBA-AR, – 2020, 27, – s. 11-27.

Son Eneolit abidələrinin “Late Sioni Ware site”[44] adlandırılması düzgün deyildir. Sioni yaşayış yerindən aşkar olunan tipik “Sioni keramikası” Cənubi Qafqazın yaşayış yerlərində olduqca az rastlanır. Qara rəngli və qum qarışığı olan Sioni keramikasından fərqli olaraq Cənubi Qafqazın, o cümlədən Sirabçay vadisinin keramika məmulatı saman qarışıq olması, qırmızı və sarı rəngdə bişirilməsi ilə fərqlənir. Arpaçay, Naxçıvançay və Sirabçay vadisinin Son Eneolit dövrü arxeoloji abidələrindən Berikldibi və Leylatəpə mədəniyyəti üçün xarakterik olan keramika məmulatı aşkar edilməmişdir. Bu baxımdan deyə bilərik ki, Naxçıvanın Son Eneolit abidələri Cənubi Qafqazın Berikldibi və Leylatəpə abidələrinin təmsil etdiyi mədəniyyətlərindən əvvəlki dövrə aiddir.[45] Araşdırmalara əsasən deyə bilərik ki, Mil düzü, Naxçıvan, Urmiya gölünün şimalı və Şərqi Anadolunun müəyyən hissəsi e. ə. V minilliyin sonunda eyni mədəniyyətin yayılma arealına daxil olmuşdur.

Dissertasiyanın “**Nəticə**” hissəsində aparılan araşdırmalar ümumiləşdirilmişdir. Tədqiqat işinin əsas nəticələri aşağıdakılardır:

- Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, Ovçulartəpədə birinci mərhələ ilə ikinci mərhələnin arxitekturasında müəyyən fərqlərin olmasına baxmayaraq keramika məmulatında kəskin fərq izlənməmiş və bu mərhələlər bir-birinin davamı olmuşdur. Həm birinci, həm də ikinci mərhələnin keramika məmulatı texnoloji, morfoloji, forma və ornamentasiya baxımından oxşardır. Ovçulartəpə üçün xarakterik olan məməcikşəkilli ornament, qabarıq kəmər, qabarıq kəmər üzərindən basma naxış, barmaq basqıları Naxçıvanda Neolit, Erkən və Orta Eneolitdən məlum olan ənənələr əsasında inkişaf etmişdir (1).

---

[44]Kiguradze, T. The Chalcolithic – Early Bronze Age transition in the eastern Caucasus // Chronologie des Pays du Caushape et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998, Varia Anatolica XI, – Paris: – 2000. – p. 321-325.

[45]Kuliyeva, Z., Bahşeliyev, V. Nahçıvan’ın Kalkolitik Çağ Kültürü (Azerbaycan) // – Ankara: TUBA-AR, – 2018, 23, – s. 29.

- Ovçulartəpə ilə Şərqi Anadolunun Norşuntəpə, Tülintəpə və digər yaşayış yerlərinin keramikası arasında forma və ornamentasiya baxımından yaxın bənzərlik görülməkdədir ki, bu da, bizim fikrimizə görə, qonşu regionların bir-birinə təsirinin nəticəsidir (6).

- Araşdırmalar göstərir ki, Mil, Muğan düzlərinin, həmçinin Urmiya hövzəsinin sakinləri Naxçıvan yaxınlığında yerləşən Zəngəzur yataqlarından istifadə etmişlər. Beləliklə, Mil düzü, Urmiya hövzəsində və Naxçıvanda yaşayan insanlar ortaq yataqlardan istifadə etmişlər. Bu isə Ovçulartəpə mədəniyyətinin Mil, Muğan, Urmiya hövzəsi, İqdır və Ağrı ovalığında yayılan mədəniyyətlərə təsir etməsinə imkan yaratmışdır;

- Ovçulartəpə yaşayış yerinin arxitekturası və keramikası qonşu regionlarla bağlı olsa da, özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Bu baxımdan,Ovçulartəpə yaşayış yerinin materiallarını Ovçulartəpə mədəniyyəti adlandırmaq olar (7).

- Araşdırmalar zamanı Ovçulartəpədən aşkar olunan metal əşyalar mis filizinin qalıqları, körük ucluğu, qurğuşun əşya və digər tapıntılar bu yaşayış yerinin qədim metallurgiya mərkəzi olduğunu təsdiq edir. Artıq bu dövrdə Ovçulartəpə metallurqları müxtəlif metalların, o cümlədən arsenli metalın xüsusiyyətlərinə bələd idilər (3);

- Sirabçay və Qahabçay hövzəsində araşdırılan arxeoloji abidələrdən aşkar olunan keramika məmulatı bu ərazidə insanların qədim dövrlərdən başlayaraq məskunlaşdığını göstərir. Bu ərazinin coğrafi baxımdan Naxçıvançay vadisinin yaxınlığında yerləşməsi ərazinin bol otlaqları, sərin bulaqları gursulu çayları, burada əkinçi-maldar tayfaların məskən salması üçün şərait yaratmışdır. Araşdırmalar Sirabçay vadisindəki Son Eneolit mədəniyyətinin Ovçulartəpə mədəniyyətinin davamı olduğunu göstərir (4;8);

- Araşdırmalar zamanı yaşayış yerlərindən xeyli obsidian qəlpələri və nukleusların aşkar olunması, yaşayış yerlərində misin minerallları olan malaxit və azuritə rastlanması qədim insanların xammal ehtiyatları ilə tanış olduqlarını göstərir. Şübhəsiz ki, xammal əldə etmək istəyi də insanların geniş əraziyə yayılmasında müəyyən rol oynamışdır (3);

- Sirabçay vadisinin abidələrində aşkar olunan keramika məmulatı bu yaşayış yerlərinin əsasən Son Eneolit dövründə məskunlaşdırıldığını göstərir. Yaşayış yerlərində mədəni təbəqənin az yığılması insanların əsas məşğuliyyətinin köçmə maldarlıq olduğunu deməyə əsas verir.Yaşayş yerlərinin Son Eneolit dövrünə aid məskunlaşdırılması həmin dövrdə bu bölgədən intensiv istifadə olunduğunu göstərir. Yaşayış yerlərinin təbii cəhətdən müdafiə olunan mövqedə olması ehtimal ki, insanların təbii fəlakətlərdən qorunmasını təmin etmişdir. Eneolit dövrünün sonunda əhalinin geniş əraziyə yayılması fikrimizə görə, köçmə maldarlıqla yanaşı, həm də insanların xammal arayışı ilə bağlı olmuşdur. Sirabçay vadisindəki abidələrdə mis filizinin qalıqlarının, həmçinin metal emalı izlərinin aşkar olunması bunu təsdiq edir (4). Ehtimal ki, bu region Azərbaycanın cənubunda və şimalında yaşayan tayfaları bir-biri ilə əlaqələndirən əsas kommunikasiya xətlərindən biri olmuşdur. Qədim dövrdə Cənubi Qafqazı Yaxın Şərq ölkələri ilə bağlayan yollardan biri, şübhəsiz ki, Naxçıvandan keçmişdir. Neolit və Eneolit dövründə obsidian gətirilməsi üçün istifadə olunan bu yollar bir qədər sonra metal əldə etməyin əsas vasitəsinə çevrilmişdir;

- Yeniyol yaşayış yerində aşkar olunan misəritmə ocağının qalıqları, həmçinin Zirincli və Qahabdan aşkar olunan qəliblər bu yaşayış yerlərində məskunlaşan insanların əsas məşğuliyyət formalarından birinin də metallurgiya və metalişləmə olduğunu təsdiq edir. Zirincli yaşayış yerindən və Qahabdan metal baltalar tökmək üçün daş və gil qəliblərin tapılması, bu ərazidə məskunlaşan insanların yüksək istehsal vərdişlərindən xəbər verir və əhali içərisində metal emalı ilə bağlı ixtisaslaşmış işçilərin olduğunu təsdiq edir. Naxçıvanın və Zəngəzurun mis yataqları ilə zəngin olması mis metallurgiyasının inkişafı üçün əlverişli şərait yaratmışdır. Yaşayış yerlərinin əksəriyyətindən mis filizi qalıqlarının aşkar olunması da buna işarə edir;

- Yeniyol və Şorsu yaşayış yerlərinin keramikası Azərbaycanın cənubunda yerləşən abidələrin keramikası ilə yaxından bənzərdir. Keramika məmulatının tipoloji analizinə əsasən demək olar ki, Köhnə Pasqah, Yeniyol və Şorsu kimi abidələr eyni bir mədəniyyətə aid

olmuşdur. Şübhəsiz ki, gələcək tədqiqatlar bu mədəniyyətin yayılma arealını daha da dəqiqləşdirməyə imkan verəcəkdir;

- İstər Ovçulartəpədən, istərsədə Naxçıvançay və Sirabçay vadisinin abidələrindən Şimali Mesopotamiya ilə əlaqələri təsdiq edən tapıntılar az tapılmışdır (8). Başlıca olaraq boyalı keramika ilə seçilən Şimali Mesopotamiyanın Ubeyd mədəniyyətinin izlərinə Erkən və Orta Eneolit dövründə daha çox rast gəlinmişdir. Ovçulartəpədə Ubeyd mədəniyyəti ilə bağlı cəmi bir, Yeniyolda isə iki keramika nümunəsi aşkar olunmuşdur. Arxeoloji materialların tədqiqinə əsasən deyə bilərik ki, Ubeyd mədəniyyəti ilə bu hövzədə yaşayan qədim tayfalar arasında müəyyən əlaqələr miqrasiya şəklində deyil, iqtisadi-mədəni əlaqələr şəklində olmuşdur.

- Ovçulartəpə, Sirabçay yaşayış yerləri və Mərənd Kültəpəsindən aşkar olunan obsidianların analizi Zəngəzur və Göyəm dağlarındakı obsidian yataqlarından geniş istifadə olunduğunu göstərir. Şübhəsiz ki, bu regionda məskunlaşan tayfaların obsidianın cənub regionlarına ötürülməsində mühüm rolu olmuşdur;

- Şərqi Anadolu yaşayış yerlərindən aşkar olunan keramika məmulatının bir qrupu, xüsusilə İqdır və Ağrı ovalığında yerləşən yaşayış yerlərinin materialları Naxçıvanın Son Eneolit dövrü yaşayış yerlərinin materialları ilə yaxından bənzərdir və bizim fikrimizə görə, eyni bir mədəniyyətə aiddir. Şərqi Anadolunun bu bölgəsindəki Son Eneolit dövrü yaşayış yerlərinin mövsümi xarakterli olması da diqqətçəkicidir. Bu baxımdan, onlar Naxçıvan abidələri ilə eyni xüsusiyyətləri paylaşır və köçmə maldarlığın inkişaf etdiyini təsdiq edir (2);

- Ancaq Malatya bölgəsində yerləşən Tülintəpə, Norşuntəpə, Təpəcik kimi yaşayış yerlərində tünd rəngli cilalı keramika, həmçinin qara rəngli qrafitlənmiş keramika üstünlük təşkil edir. Bu xüsusiyyət həmin yaşayış yerlərinin keramikasını Naxçıvan abidələrinin keramikasından fərqləndirir. Araşdırmalar göstərir ki, Şərqi Anadolunun bu bölgəsinin Son Eneolit mədəniyyəti üçün xarakterik olan keramika məmulatı burada Neolit və Erkən Eneolit dövründən məlumdur. Digər tərəfdən bu yaşayış yerləri çoxtəbəqəlidir. Bu yaşayış yerlərinin bəzisində həyat Neolit dövründən, bəzisində isə Erkən Eneolit dövründən Son Eneolit dövrünədək fasiləsiz davam etmişdir. Deyə bilə-

rik ki, bu bölgənin Son Eneolit mədəniyyəti Neolit və Erkən Eneolit mədəniyyətindən qaynaqlanaraq inkişaf etmişdir. Ancaq Şərqi Anadolunun bu bölgəsinin keramika məmulatı Ovçulartəpənin keramikası ilə həm forma baxımından, həm də naxış motivi baxımından çox bənzərdir (2). Fikrimizə görə, bu bənzərlik hər iki regionda yaşayan əhalinin bir-biri ilə iqtisadi-mədəni əlaqələri nəticəsində mümkün olmuşdur;

- Şərqi Anadolu yaşayış yerlərində Xalaf və Ubeyd mədəniyyətlərinin təsiri özünü aydın şəkildə göstərir. Bu bölgənin Erkən Eneolit dövrü abidələrində Xalaf boyalılarına, Orta Eneolit abidələrində isə Ubeyd boyalılarına rast gəlinir. Son Eneolit dövründə Ubeyd tipli boyalılara rast gəlinsə də, sanki bu əlaqələr zəifləyir. Digər tərəfdən, Şərqi Anadoluda yerləşən Tülkütəpə, İlandaş kimi yaşayış yerləri boyalı keramika məmulatının zəngin olması ilə fərqlənir. Biz tədqiqatçıların bu abidələrin Şimali Mesopotamiya sakinlərinə məxsus yaşayış yerləri olması haqqındakı fikirlərini qəbul edirik. Fikrimizə görə, Şimali Mesopotamiya ilə əlaqələr Şərqi Anadoluda salınmış koloniyalar vasitəsi ilə həyata keçirilmişdir (8);

- Naxçıvan yaşayış yerlərində Şərqi Anadolu obsidianına rast gəlinməsi bu iki bölgə arasında əlaqələrin Neolit dövründən başladığını və Eneolit dövründə davam etdiyini təsdiq edir (1). Lakin, yuxarıda da qeyd etdiyimiz kimi, bu dövrdə Ubeyd boyalılarının az olması əlaqələrin bir qədər zəifləməsindən xəbər verir;

- Arxeoloji materialların təhlili Naxçıvan və Şərqi Anadolunun Son Eneolit mədəniyyətinin mənşə baxımından fərqli olmasına baxmayaraq, onlararasında sıx iqtisadi-mədəni əlaqələrin olduğunu, mədəniyyətlərin bir-birinə təsir etdiyini təsdiq edir (2). Şübhəsiz ki, Son Eneolit dövrü mədəniyyətlərinin regional inkişafı zəngin xammal mənbələri ilə bağlı olmuşdur. Naxçıvanın və Şərqi Anadolunun yaşayış yerlərində metallurgiya və metal emalı ilə bağlı faktların aşkar olunması da bunu təsdiq edir (3).

**Dissertasiyanın məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Ovçulartəpə yaşayış yerinin Son Eneolit keramikası // AMEA Naxçıvan Bölməsinin Elmi Əsərləri, İctimai və humanitar elmlər seriyası, – 2021. № 1, – s. 86-93.

2. Naxçıvan və Şərqi Anadolunun Son Eneolit dövrü keramikasının ortaq xüsusiyyətləri // Naxçıvan: Mədəniyyətlərin qovuşduğu məkan. Beynəlxalq Elmi Konfransın materialları. – 22-23 oktyabr 2020-ci il. – Naxçıvan, – 2021, – s. 79-82.

3. Металлургия и металлообработка Нахчывана в эпохи позднего энеолита // – Уфа: Вестник Науки. Инновационные научные исследования, – 2021. № 5-2 (7), – с. 114-124.

4. Sirabçay və Naxçıvançay vadisinin Son Eneolit keramikası // Naxçıvan Universitetinin Elmi əsərləri, – 2021. – № 2, – s. 175-184.

5. Son Eneolit dövrü abidələrinin xronologiyası // AMEA Naxçıvan Bölməsinin Elmi Əsərləri, İctimai və humanitar elmlər seriyası, – 2021. № 3, – s. 81-88.

6. Однотипные керамикческие изделия Нахчывана и Восточной Анатолии // – Киев: Гилея, – 2021. вып. 162, № 5, – с. 13-15.

7. Археологическое исследование на поселении Овчулартепе // Сборник научных статей по материалам VI – Международной научно-практической конференции, – Уфа: – 13 июля 2021 г, – 2021, – с. 34-41.

8. Исследование энеолитической керамики памятников Сираба // Сборник научных статей по материалам VI – Международной научно-практической конференции, – Уфа: – 06 июля 2021 г, – 2021, – с. 35-44.

Dissertasiyanın müdafiəsi 03 dekabr 2021-ci il tarixdə saat $14^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 01 noyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.10.2021
Kağızın formatı: 60/84, 16/1
Həcm: 43.725
Tiraj: 100